**UOT (291.1)** **Səh. (69-74)**
**DOİ: https://doi.org/10.59849/2219-7370.2025.32.69**

# MƏHƏMMƏD FÜZULİNİN YARADICILIĞINDA MESSİANİZM (FƏLSƏFİ-DİNİ ASPEKTLƏR)

**Elnur Mustafayev**
AMEA Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
"Din və ictimai fikir" şöbəsinin müdiri, İnstitutun
Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fəls.ü.f.d., dosent,
e-mail: elnur.mustafayev88@mail.ru
https://orcid.org/0000-0001-9784-3466

**Xülasə**

Tarixi hadisələrə, qədim milli-mənəvi irsə, xüsusən dini inanclara münasibət ictimai və hümanitar elmlər üçün həmişə aktual məsələ olmuşdur. Dini inanclar, bütövlükdə milli-mədəni irs hər bir xalqın mənəvi, qeyri-maddi sərvəti kimi qəbul edilir. Mifoloji təsəvvürlər, şifahi və yazılı folklor nümunələri, maddi mədəniyyət abidələri, qədim daş salnamələr, dini inanclar və adət-ənənələr bütövlükdə xalqın mövcudluğunu göstərən dəlil-sübutlardır.
Məlum olduğu kimi messianizm (mehdiçilik) inancı bütün dinlərdə və bir sıra dini-fəsləfi düşüncə məktəblərində mövcuddur. Bəşəriyyət tarixində müxtəlif dövr və zamanlarda baş verən təbii fəlakətlər, müharibələr, kütləvi şəkildə yayılan xəstəlik və epidemiyalar, insanların çarəsiz qaldığı vəziyyətlərdə hər hansı bir xilaskara inam və ya insanları çətin durumdan xilas edəcək hər hansı bir varlığı gözləmək kimi hissləri psixoloji bir tələbat kimi izah etmək mümkündür. Təbii ki, mehdiçiliklə bağlı düşüncələr birmənalı deyildir və bu mövzu ilə bağlı inanclar, dini-siyasi görüşlər dinlərə və siyasi-fəlsəfi məktəblərə, həmçinin zaman və məkana görə dəyişir.
Mehdiçilik problemi islam dininin ən əhəmiyyətli mövzularından biri olduğu üçün tarixən Azərbaycan alimlərinin və ədiblərinin həmişə maraq dairəsində olmuşdur. Bu baxımdan, mehdiçilik inancı etiqad baxımdan aktual bir mövzu kimi həm azərbaycanlı fəlsəfə və ilahiyyat alimlərinin, həm də şair və incəsənət xadimlərinin yaradıcılığında geniş şəkildə işlənilmişdir.
Azərbaycanlı filosof-şair Məhəmməd Füzuli də (1494-1556) əsərlərində, həmçinin qəsidə və qəzəllərində mehdiçilik məsələsinə toxunmuş və bu mövzu ilə bağlı bir sıra məqamları müfəssəl şəkildə şərh etmişdir.
**Açar sözlər:** ədəbiyyat, Füzuli, messianizm, inanc, din

# MESSIANISM IN THE WORK OF MUHAMMAD FUZULI (PHILOSOPHICAL-RELIGIOUS ASPECTS)

**Elnur Mustafayev,**
Head of the "Religion and Public Opinion"
Department of the Institute of Oriental Studies
named after Z.M. Bunyadov of ANAS, Chairman of
the Council of Young Scientists and Specialists of the
Institute, Doctor of Philosophy, associate professor
e-mail: elnur.mustafayev88@mail.ru
https://orcid.org/0000-0001-9784-3466

**Summary**

As is known, the belief in the Mahdism (messianism) exists in all religions and in a number of religious and philosophical schools of thought. It is possible to explain the feelings of natural disasters, wars, widespread diseases and epidemics that have occurred at different times and periods in human history, such as belief in a savior or waiting for some being who will save people from a difficult situation in situations where people are helpless, as a psychological need. Of course, thoughts about the Mahdism are not unambiguous and beliefs, religious and political views on this subject may vary depending on religions and political and philosophical schools, as well as time and place.
Azerbaijani philosopher and poet Muhammad Fuzuli (1494-1556) also touched upon the issue of Mahdism in a number of his scientific and critical works, as well as in his qasidahs and ghazals, and commented on some aspects of this topic in detail.
**Keywords:** literature, Fuzuli, Mahdism, belief, religion

# МЕССИАНСТВО В ТВОРЧЕСТВЕ МУХАММАДА ФИЗУЛИ (ФИЛОСОФСКО-РЕЛИГИОЗНЫЕ АСПЕКТЫ)

**Эльнур Мустафаев,**
заведующий отделом «Религия и общественное
мнение» Института востоковедения им.
З.М. Бунията НАНА, председатель Совета
молодых ученых и специалистов Института,
доктор философских наук, доцент
e-mail: elnur.mustafayev88@mail.ru
https://orcid.org/0000-0001-9784-3466

**Аннотация**

Как известно, вера в махдизм (мессианство) существует во всех религиях и в ряде религиозно-философских школ. Можно объяснить психологическую потребность людей верой в великого спасителя или некую божественную силу, когда люди беспомощны перед стихийными бедствиями, войнами, массовыми болезнями и эпидемиями, происходившими и происходящими в разные времена и периоды истории человечества. Конечно, мысли о махдизме не являются однозначными: и верования, и религиозно-политические взгляды на этот счет могут различаться, в зависимости от религий, политико-философских школ, времени и места.

Азербайджанский философ и поэт Мухаммед Физули (1494-1556) также затрагивал вопрос махдизма и философско-этические вопросы в ряде своих научных трудов, а также в своих касыдах и газелях, проясняя некоторые аспекты этой темы.
**Ключевые слова:** литература, Физули, махдизм, вера, религия

## GİRİŞ

Mehdiçilik inancı tarixin müxtəlif dövürlərində fərqli aspektlərdən dini, siyasi, ictimai və psixoloji bir amil kimi cəmiyyətin həyatına təsir edən bir anlayış olaraq özünü göstərmişdir. Sosial şərtlərin pozulması nəticəsində bir sığınma mexanizmi olaraq "xilaskarlıq" anlayışı gələcəyə ümid yaratmaq üçün bir vasitə kimi ortaya çıxmış və daha sonra müxtəlif istiqamətlərə yönəldilmişdir. Bəzi tədqiqatçılara görə maddi maraqların təminatçısı kimi meydana çıxan xilaskarlıq inancı dini sahəyə də sirayət edərək mənəvi funksiya rolunu oynamışdır. Lakin bir çox ilahiyyatçı alimlər isə birinci versiyanın əksinə olaraq xilaskarlıq inancının ilahi vəhy və tapşırıq əsasında dini inanc sisteminin bir hissəsini təşkil etdiyini qeyd etmişlər.

Dini, siyasi, ictimai və psixoloji xüsusiyyətlərinə görə mehdiçilik inancı ilkin qəbilə dinləri olmaq şərti ilə müasir düşüncə məktəblərinə qədər öz kimliyini qorumuşdur. Tarixdə bir çox siyasi hərəkatların arxa planında mehdiçilik inancının təsirini sezmək olar. Bu cəhətdən, erkən islam tarixində bir çox dini-siyasi hərəkatların, siyasi mübarizə zəmnində bu anlayışdan geniş şəkildə istifadə etdiyini görmək mümkündür. Məhəmməd peyğəmbərin vəfatından sonra siyasi hakimiyyət uğrunda mübarizələr, müsəlmanların fərqli ideoloji dini-siyasi hərəkatlar çərçivəsində haçalanması cəmiyyətdə müxtəlif dini, siyasi, iqtisadi və ictimai problemlərlə nəticələndi. Xüsusilə, Kərbəla hadisəsindən sonra bu proseslərin sürətlənməsi, yeni dini cərəyanların meydana çıxması islam aləmində mürəkkəb bir vəziyyət yaratdı. Mehdiçilik anlayışının mahiyyətində xilaskarlıq və ədalətin bərpası dayandığı üçün o, siyasi qruplaşmalar üçün qüvvətli bir silah rolunu oynayırdı. Əməvilər hakimiyyətinin son illərində hakimiyyət uğrunda Əməvi-Abbasi qarşıdurmasında mehdiçilik inancından müxtəlif istiqamətlərdə istifadə edildiyi görünməkdədir. Siyasi hakmiyyəti qorumaq və ya ələ keçirmək istəyən tərəflər özlərini bir xilaskar kimi təqdim etməklə xalq arasında rəğbət qazanmaq və dayaqlarını möhkəmləndirmək istəyirdilər.

Qeyd etmək lazımdır ki, bu məsələ islam məzhəbləri arasında fərqli ölçüdə diqqətə alınır. Bəzi islam məzhəbləri mehdiçilik inancına səthi yanaşsa da bəzi islam məzhəblərində bu inanc çox qüvvətlidir və həmin məzhəblərin ana platformasını təşkil etməkdədir. Başqa sözlə desək, mehdiçilik inancı bəzi məzhəblərin dini-fəlsəfi və ictimai-siyasi həyatının ən vacib elementi kimi rol oynayır və inanc sistemlərinin formalaşmasında əsas amil kimi qəbul edilir.

Məhəmməd peyğəmbərin vəfatından sonra müsəlmanlar üzləşdikləri siyasi-ictimai, dini və psixoloji problemlərin həll yollarını tapmağa cəhd göstərmişdir və bu mürəkkəb hadisələrin fonunda xilaskar inancı bir daha aktuallaşmışdır [9, 95]. İslam tarixinin müxtəlif dövrlərində müceddid, mehdi, məsih və müxtəlif adlarla xilaskar hesab edilən bir çox insanların meydana çıxması məlumdur. Xilaskarlıqla bağlı iddialar bəzən «nübuvvət» (peyğəmbərlik) və «imamət» (dini və dünyəvi idarəçilik) kimi ali dini vəzifələrə qədər qaldırılmış, bir çox hallarda siyasi məqsədlər üçün istifadə edilmişdir [18, 46]. Mehdiçilik inancının islam dünyasında təşəkkül tapmasına bir çox səbəblər təsir göstərmiş və nəticədə islam fəlsəfi-siyasi düşüncə sisteminin bir hissəsinə çevrilmişdir.

İslamda mehdiçilik inancının təzahürləri və bu mövzu ilə əlaqəli inanclar müxtəlif islam məzhəblərinə görə fərqli şəkildə təsəvvür edilir. Qeyd etmək lazımdır ki, mehdiçilik inancı ümumi prinsip olaraq bütün islam məzhəbləri tərəfindən birmənalı olaraq qəbul edilir [9, 98]. Lakin bu inancın təfərrüatlarında, xüsusilə xi-

laskar Mehdinin kimliyi, xüsusiyyətləri, və missiyası, dində yeri və mövqeyi ilə bağlı detallarda kifayət qədər fərqlər vardır.

Xülasə etsək, islamın iki əsas ana məzhəbi əhli-sünnə və şiə məzhəblərində mehdiçilik inancının müştərək və fərqli cəhətləri vardır. Müştərək cəhətlərə mehdiçilik inancı ilə bağlı Məhəmməd peyğəmbərdən nəql edilən hədislərin hər iki firqənin mötəbər mənbələrində yer tutması, Onun Məhəmməd peyğəmbərin nəslindən olması, Qiyamətdən əvvəl zühur edəcəyi, cahanşümul cəmiyyət yaratması, müharibələrə son qoyması, ədalət və sülhü hakim etməsi, islam dininin yenidən canlanması və sairə nüansları misal göstərmək olar. Mehdiçiliklə bağlı iki məzhəb arasında bir neçə fikir ayrılıqları mövcuddur. Ən əsas fikir ayrılığı mehdiçilik inancının dindəki yeri məsələsidir. Şiələrə görə mehdiçilik inancı iman əsaslarından biri olan «imamət» inancının tərkib hissəsi olmaqla məzhəbin əsaslarından biri kimi təşəkkül tapır. Lakin əhli-sünnə məzhəbində mehdiçilik inancı ikinci dərəcəli bir məsələdir və məzhəbin əsaslarından deyildir. İkinci fikir ayrılığı, Mehdinin kimliyindədir. İmamiyyə şiələrinə görə dünyanı xilas edəcək Mehdi hicri 255-ci ildə doğulmuş on ikinci imamdır və tam adı Məhəmməd ibn Həsən əl-Mehdidir [16, 27]. İmamiyyə məzhəbinin inancına görə o, qısamüddətli və uzunmüddətli olmaqla iki dəfə qeybə çəkilmiş və qiyamətdən öncə zühur edəcəkdir. Əhli-sünnə məzhəbinə görə Mehdi axırzamanda doğulacaqdır və onun tam adı Məhəmməd ibn Abdullahdır. Belə bir qənaətə gələ bilərik ki, mehdiçilik inancı hər iki məzhəbin düşüncələrində müəyyən fikir ayrılığı mövcuddur, tarixən və müasir dövrdə onun hər iki məzhəbin hakim olduğu cəmiyyətlərə psixoloji, sosial, psixo-sosial və siyasi təsirləri olmuş və hal-hazırda təsirləri davam etməkdədir.

***Füzulinin yaradıcılığında mehdiçilik probleminə fəlsəfi-dini baxış***

Nizami Gəncəvi, Nəsirəddin Tusi və İmadəddin Nəsimi ilə yanaşı digər azərbaycanlı məşhur mütəfəkkir filosof-şairlər kimi Məhəmməd Füzuli də (1494-1556) bəzi əsərlərində, həmçinin qəsidə və qəzəllərində mehdiçilik məsələsinə toxunmuş və bu mövzu ilə bağlı bir sıra məqamları şərh etmişdir. O, Ərəb dilində ilahiyyat elminə dair yazdığı ***«Mətlə ül-etiqad fi mərifət il-məbdə vəl-məad»*** adlı əsərinin ***«nübuvvət»*** (peyğəmbərlik) başlıqlı dördüncü rüknun (fəslin) beşinci, ***«imamət»*** adlı babında (bölmə) mehdiçilik məsələsinə toxunmuşdur. O, bu bölmədə təsviri-analitik metodu izləyərək müxtəlif məzhəblərin mövzu ilə bağlı nəzəriyyələrini qeyd etmişdir. Məhəmməd Füzuli ***«imamət»*** başlıqlı dördüncü fəslin beşinci bölməsində qeyd edir:

*« وجود الإمامة ضروري لأن حكم الشريعة يقتضى الاستدامة لبقاء الإسلام و الشارع في الحيوة المجازية يمتع الدوام فلا ينظم أمور النظام في الأمصار و الأعصار إلا وجود الإمام. قال النبي صلى الله عليه و آله من مات و لم يعرف إمام زمانه فقد مات ميتة جاهلية»* [19, s.100]

***«İmamətin mövcudluğu zəruridir; çünki islamın (daimi olaraq) yaşaması üçün şəriət qanunları davam etməlidir. Qanunverici (Allah) məcazi həyatda (bu dünyada) qanunları daimi edir. Belə bir nəticəyə gəlmək olar ki, müxtəlif ölkələrdə və zamanlarda qayda-qanun yalnız imamın mövcudluğu ilə tənzimlənə bilər. Peyğəmbər (Allahın salamı olsun ona və ailəsinə) belə demişdir: "Hər kim öz zəmanəsinin imamını tanımadan ölərsə, sanki cahiliyyət dövründə (azğınlıq və nadanlıq içində) ölmüşdür»***

Məhəmməd Füzuli ***«imamət»*** ilə bağlı öz rəyini qeyd etdikdən sonra müxtəlif islam məzhəblərinin fikirlərini təsviri şəkildə sadalamış və imamın kimliyi haqqında bəzi nəzəriyyələrə toxunmuşdur. Daha sonra isə imamın kimliyi barəsində imamiyyə şiələrinin rəyini qeyd edir:

*«قال الإمامية الامام علي بعد النبي بلا فصل... قالت الاثنا عشرية الامامة لعلي و أولاده و هم الحسن و الحسين و العابد و الباقر و الصادق و الكاظم و الرضا و التقي و النقي و العسكري و المهدي المنتظر متسلسلا فلا فصل من بعد النبي»*

***«İmamiyyə (şiə) məzhəbinə görə Peyğəmbərdən sonra Əli bilavasitə imamdır... on iki imama inanlara görə imamət ardıcıl olaraq Peyğəmbərdən sonra bilavasitə sıra ilə Əli və onun övladlarına yəni, Həsən, Hüseyn, Abid (Zeynul-abidin), Baqir, Sadiq, Kazim,***

***Rza, Təqi, Nəqi, Əskəri və gözlənilən Mehdiyə məxsusdur»*** [19, s.101].

Məhəmməd Füzuli islamda gözlənilən Mehdinin kimliyi ilə bağlı məsələyə digər məşhur əsəri ***«Hədiqət üs-süəda»*** *("Xoşbəxtlər bağçası")* əsərində də toxunmuşdur. Füzulinin həcmcə ən böyük əsəri olan ***«Hədiqət üs-süəda»*** Azərbaycan, o cümlədən Yaxın Şərq ədəbiyyatının bədii-dini nəsrin ən parlaq əsərlərindən biri hesab olunur. Azərbaycan türkcəsində yazılmış bu əsər hicri 61-ci il (miladi 680) məhərrəm ayının 10-da Kərbəlada baş vermiş hadisə haqqında həmçinin İmam Hüseyn və tərəfdarlarının nümayiş etdirdiyi qəhərəmanlıqdan bəhs edir. M.Füzuli bu əsərdə bir çox tarixi və etiqadi məsələlərə toxunmuş və əsərin ***«Xatimə»*** adlı son hissəsinin ***«İzhari-təvəllüdi-əimmə va ğeyrihi rəziyyallahu ənhum»*** adlı bölməsində Məhəmməd peyğəmbərdən sonra müsəlmanlara din və dünya işlərində rəhbərlik edəcək şəxslərin kimliyini, o cümlədən on iki imamın adlarını, təvəllüdlərini və doğum yerləri haqqında tarixi məlumatları paylaşmışdır. O, bu bölmənin sonunda qeyd edir:

***«Həzrəti-İmam Məhəmməd Mehdi (ə) on ikinci imamdır. Məzhəbi imamiyyə müqtəzasinca və silsileyi-imamət onda xətm olur. Və`llahu ə`ləm»*** [8, c.6, s.378]

Məhəmməd Füzuli imamiyyə məzhəbinin görüşünü qeyd edərək islamda vəd edilmiş xilaskarın on ikinci imam, Məhəmməd ibn Həsən əl-Mehdi (ə) olduğunu və onunla imamət silsiləsinin sona çatdığını qeyd etmişdir. Məhəmməd Füzuli birinci əsəri ***«Mətlə ül-etiqad»*** əsərində təsviri-analitik metodu izləməklə hansısa məzhəbin tərəfini tutmamış və təəssübkeşlikdən uzaq olmuşdur. Lakin ***«Hədiqət üs-süəda»*** əsərində isə o, öz dini düşüncə, iman və əqidə duyğularını bədii ifadə vasitələri ilə əks etdirmiş və mehdiçiliklə bağlı inanclarını nümayiş etdirmişdir. Bu baxımdan mehdiçilik inancı ilə bağlı Nəsrəddin Tusi və Nəsimi ilə eyni düşüncələri paylaşmışdır.

Məhəmməd Füzuli şair kimi bədii yaradıcılığında mehdiçilik mövzusuna geniş şəkildə toxunmuş, islamda vəd edilmiş İmam Mehdini (ə) vəsf etməklə yüzlərlə qəsidə və qəzəl yazmışdır. Füzulinin fars dilində yazılmış bir qəsidəsində belə deyilir:

*"İmamların sonuncusu, fələyin qütbü, xalqın qibləsi,*
*Din sultanı Məhəmməd Mehdi ki, böyük-kiçik*
*Səhər-axşam onu görmək intizarındadır.*
*Ayın dövrü onu görməklə başa çatar,*
*Onun sübhü məhşər gününün səhəridir"*
[8, c.5, s.203].

Füzuli fars dilində yazdığı qəsidədə Mehdini (ə) imamların sonuncusu, fələyin qütbü və xalqın qibləsi kimi vəsf edir. Qütb ərəb sözü olub dəyirman daşının mili (oxu) mənasında işlədilir. Təsəvvüf düşüncə sisteminə görə dəyirman daşı milin ətrafında nə cür fırlanırsa bütün aləm də Qütbün ətrafında o cür fırlanır. İmamiyyə şiələrinə görə hal-hazırda Qütb on ikinci imam Mehdidir. Daha sonra, Füzuli öz qəsidəsində İmam Mehdini (ə) insanların son ümidi və qibləsi kimi qiymətləndirir, onun zühuru ilə mənəvi və dünyavi kamilliyin tamamlanacağını vurğulayır.

Məhəmməd Füzuli Azərbaycan türkcəsində yazdığı ***«əl-Həmd ül-illah»*** mətləli qəsidəsində belə qeyd edir:

*"Vəqt oldu qönçə açıla, gül xürdəsin zahir qıla,*
*Mehdi zühurini bilə, faş edə sirrini qəza".*

Füzuli Azərbaycan türkcəsində yazdığı qəsidədə Mehdinin zühurunun əlaməti kimi qönçələrin açması, gül-çiçəklərin öz gözəlliklərini izhar etməsində görür. Şair bədii ifadə vasitələrindən istifadə etməklə gözlənilən Mehdinin (ə) gəlməsi ilə bütün dünyanın sülhə bürünəcəyini, zülmə son qoyulacağı və ədalətin bərpa ediləcəyi kimi ali ideyaları tərənnüm edir. Bu baxımdan şairin yaradıcılığında mehdiçilik inancı xüsusi yer tutur və bəşəriyyətin xilasını öz inancına uyğun olaraq Mehdinin (ə) zühuru ilə bağlayır.

## Nəticə

Mehdiçilik inancının mahiyyətində ümumbəşəri dəyərlər, ədalətli cəmiyyət, xoşbəxt və firavan həyat ideyaları dayandığına görə şairlər üçün ən strateji mövzulardan biri olmuşdur. Bu istiqamət Nizami, Nəsimi, Füzuli, Xətai və digər böyük ədiblərin yaradıcılığında daha çox hiss olunur. Bəzi hallarda azərbaycan şairləri mehdiçilik anlayışına səmimi yanaşaraq dini inanc kimi öz şeirlərində bu mövzunu

işıqlandırmış, bəzən isə dövrün hökmdarlarını idarəçilikdə ədalətə dəvət etmək məqsədi ilə mehdiçilik anlayışını qabartmışlar. İslam inanclarında Mehdi zülmün kökünü kəsib bütün dünyada ədaləti bərpa edəcək bir fenomendir. Bu cəhətdən, Mehdi obrazı şairlər üçün zalım hökmdarlara qarşı qəzəbli hayqırtı, hədələyici nərə və xalqın dərdini demək üçün əlverişli bir vasitə olmuşdur. Başqa sözlə, klassik azərbaycan ədəbiyyatında mehdiçilik anlayışı dövrün əli qılınclı zalım hökmdarlarına qarşı etiraz vasitəsi, həmçinin xalq şüurunun oyanmasına zəmin yaradan bir amil rolunu oynamışdır.

**İstifadə olunmuş ədəbiyyat**


1. Fəlsəfə ensklopedik lüğəti: / Baş red: İ. Vəliyev. - Bakı: Qismət, - 1997. – 520 s.
2. Gəncəvi, N. Sirlər xəzinəsi / N. Gəncəvi, tərc. ed., Ulutürk X.R. – Bakı: Lider, - 2004. - 262 s.
3. Gəncəvi, N. Yeddi Gözəl / N. Gəncəvi, tərc. ed., Rahim. M. - Bakı: Yazıçı, - 1983. – 355 s.
4. Hüseynov, Sakit. Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik / S.Hüseynov. – Bakı: Təknur, - 2012. - 176 s.
5. İmadəddin Nəsimi əsərləri: [3 cilddə] / tərt. ed., C. Qəhrəmanov, red. H.Araslı. – Bakı: Elm, c. 1. – 1973. – 572 s.
6. İmadəddin Nəsiminin seçilmiş əsərləri: [2 cilddə] / tərt. ed., H.Araslı, red. T.Kərimli. - Bakı: Lider Nəşriyyat, - c. 2. - 2004. – 376 s.
7. İncil: / Bibliya Tərcümə İnstitutu, tərc. ed., M. Mixaeli. – Zagreb: Hrvatske, - 1993. – 614 s.
8. Məhəmməd Füzuli Əsərləri: [VI cilddə] / tərt. ed. H. Araslı. - Bakı: Promat, c. 5. - 2005. – 223 s.
9. Mustafayev, E. K. Mehdilik inancının mənşəyi ilə bağlı elmi nəzəriyyələr // - Bakı: Din Araşdırmaları Jurnalı – 2020. № 1 (4), - s. 93-105
10. ابن بابويه، محمد بن علي الصدوق. كمال الدين و تمام النعمة: [مجلدان] / محمد بن علي ابن بابويه الصدوق. – قم: سرور، - ج. 1. – 2009. - 611 ص.
11. آل كاشف الغطاء، محمد الحسين. أصل الشيعة و أصولها / محمد الحسين آل كاشف الغطاء. – بيروت: دار الأضواء، - 2003. – 292 ص.
12. آل ياسين، محمد حسن. المهدي المنتظر بين التصور و التصديق / محمد حسن آل ياسين. – نجف: مركز الدراسات التخصصية، - 2011. - 208 ص.
13. الأميني، عبد الحسين. موسوعة الغدير في الكتاب و السنة و الأدب: [14 مجلدا] / عبد الحسين الأميني. – قم: مؤسسة دائرة معارف الفقه الإسلامي، - ج. 3. – 2009. – 552 ص.
14. الصدر، محمد باقر. بحث حول الامام المهدي / محمد باق الصدر. – بيروت: دار التعارف، - 2003. – 79 ص.
15. الصدر، محمد باقر. دروس في علم الأصول: [مجلدان] / محمد باقر الصدر. – قم: شريعة، - ج. 1. – 2013. – 472 ص.
16. الصدر، محمد صادق. موسوعة الامام المهدي: [4 مجلدات] / محمد صادق الصدر. - قم: حافظ، - ج. 1. – 2012. – 381 ص.
17. الصدر، محمد صادق. موسوعة الامام المهدي: [4 مجلدات] / محمد صادق الصدر. - قم: حافظ، - ج. 2. – 2012. - 413 ص.
18. الصدر، محمد صادق. موسوعة الامام المهدي: [4 مجلدات] / محمد صادق الصدر. - قم: حافظ، - ج. 3. – 2012. - 557 ص.
19. فضولي، محمد. مطلع الاعتقاد في معرفة المبدأ و المعاد / محمد فضولي. - باكو: دار الطبع لاكادمية العلوم في آذربيجان، - 1958. – 204 ص.


**Rəyçi:** **f.ü.f.d. Gündüz Süleymanov**

**Göndərilib: 23.012025** **Qəbul edilib: 06.02.2025**